# Azərbaycan "yaşıl enerji"nin inkişafına töhfə verir



"COP29-un Azərbaycanda keçirilməsi ölkəmizə bir sıra böyük üstünlüklər gətirir. Birincisi, ötən ilin sonunda COP29-a Azərbaycanın evsahibliyi edəcəyi ilə bağlı qərarın qəbul olunması ölkəmizin hazırkı beynəlxalq münasibətlər sistemində kifayət qədər güclü mövqeyinin təsirli rolundan xəbər verir. Bu, Azərbaycanın müasir tarixində çox əlamətdar hadisə idi".

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu deyib. Deputat bildirib ki, 2023-cü ilin qış aylarında ölkəmizə qarşı təşkil olunmuş çoxsaylı sistemli siyasi hücumlar olmasına baxmayaraq, Azərbaycan dövlət təhlükəsizliyinə mövcud olan separatizm təhdidini aradan qaldırmaq üçün antiterror tədbirləri həyata keçirərək ərazi bütövlüyünü bərpa, bütün əraziləri boyunca suverenliyini etibarlı və dönməz şəkildə təmin etdi. Bundan sonra ölkəmizə qarşı mövcud olan qərəzli siyasi mövqelərin formalaşdırılması cəhdləri daha da intensivləşməyə, əsassız ittihamlar irəli sürülməyə başlanıldı. Qərəzli müzakirələr müxtəlif platformalarda təşkil edildi. Buna baxmayaraq, keçirilmiş antiterror tədbirlərindən qısa zaman sonra COP29-un Azərbaycanda keçirilməsi haqqında qərar qəbul olundu. Bu, həm də Azərbaycan üçün beynəlxalq siyasi qərar kimi dəyərləndirilə bilər, çünki ölkəmizə qarşı qərəzli mövqelərin formalaşdırılması cəhdlərinə baxmayaraq, böyük əksəriyyət COP29-un Bakıda keçirilməsinə razı oldu, hətta Ermənistan namizədliyini geri götürdü. Bu isə o deməkdir ki, Azərbaycanın haqlı mövqelərini dünya ictimaiyyəti qəbul etməli oldu. "Hər şeydən öncə beynəlxalq əhəmiyyətli, genişmiqyaslı tədbirin hər hansı ölkədə keçirilməsi həm də dünyaya növbəti dəfə təqdimat imkanı qazandırır. Təbii ki, mötəbər beynəlxalq tədbirlərə evsahibliyi etməsi istiqamətində ölkəmizin çox böyük təcrübəsi var. Keçirilmiş bütün tədbirlər uğurları, təhlükəsizlik şəraitində keçirilməsi ilə yadda qalıb. Azərbaycanda mövcud olan yüksək təhlükəsizlik mühiti, sözsüz ki, dünya ictimaiyyətini də narahatlıqdan xilas edir. Təsadüfi deyil ki, ölkəmizi təhlükəsizlik adası adlandırırlar. Bu gün dünyada münaqişə potensialının olduqca yüksək olmasına, bizə yaxın coğrafiyalarda silahlı qarşıdurmaların mövcudluğuna, getdikcə daha da kəskin xarakter almasına baxmayaraq, Azərbaycanda sabitlik və təhlükəsizlik mühiti hökm sürməkdədir", - deyə o əlavə edib.

COP29-un Azərbaycanda ən yüksək təşkilatçılıq və təhlükəsizlik tələblərinə cavab verəcək səviyyədə təşkil olunacağına inamını ifadə edən deputat bildirib ki, bu konfrans ölkəmizin beynəlxalq imicini daha da yüksəldəcək. Məsələnin ikinci tərəfi ondan ibarətdir ki, COP29-un keçiriləcəyi dövrdə ölkəmizə 80 minə qədər xarici qonağın gələcəyi gözlənilir. Bu da müxtəlif xidmət sahələrinin işinin, gəlirlərinin artması deməkdir. Gələn qonaqlar həm ölkəmizlə tanış olacaq, həm də müxtəlif xidmət sahələrindən yararlanacaqlar. Məsələnin daha vacib tərəfi isə odur ki, gələn ziyarətçilər həm də COP29 tematikası üzrə təsirli insanlardan ibarət olacaq. Bu müxtəlif işgüzar görüşlərin keçirilməsi, əməkdaşlıqların qurulması imkanlarının təqdim edilməsi baxımından da əhəmiyyətlidir. Nəzərə almaq lazımdır ki, ölkəmizdə aktiv şəkildə "yaşıl enerji" mənbələrinin yaradılması və inkişaf etdirilməsi istiqamətində uğurlu işlər görülür. Azərbaycanın qarşısında duran planlardan biri də "yaşıl enerji" istehsalını beş qiqavata qədər yüksəltməkdir.

Ümumiyyətlə, Xəzər dənizinin potensialı da nəzərə alınarsa, ölkəmizdə 150 qiqavat bərpaolunan enerji istehsal etmək mümkündür. Amma bu imkanları reallığa çevirmək üçün ciddi maliyyə dəstəyi vacibdir.

E.Mirbəşiroğlu hesab edir ki, COP29 çərçivəsində həm də Azərbaycanın "yaşıl enerji" mənbələrinin yaradılması, genişləndirilməsi üçün maliyyə dəstəkləri əldə etməsi mümkün olacaq: "Bu, Azərbaycan iqtisadiyyatının dünya enerji bazarında təsirli rolunun təmin olunması üçün çox vacibdir. Bildiyimiz kimi, Qara dənizin altı ilə "yaşıl enerji" xətti inşa olunur. Azərbaycan, Gürcüstan, Rumıniya, Macarıstan və Bolqarıstan arasında saziş imzalanıb. Ölkəmiz gələcəkdə həmin xətt ilə Avropa bazarına "yaşıl enerji" ixrac edəcək. Hazırda Azərbaycan iqtisadiyyatının olduqca perspektivli bir sahəsi "yaşıl enerji"dir və COP29-un ölkəmizdə keçirilməsi bu sahənin uğurla qurulması baxımından əhəmiyyətli rol oynayacaq".

Deputat vurğulayıb ki, Azərbaycan qlobal təhlükəsizliyin etibarlı təmin olunması istiqamətində çox təsirli təşəbbüslərlə çıxış edir. Eyni zamanda praktiki addımları ilə ciddi töhfələr verir. İqlim dəyişmələrinin coğrafi xəritələri mövcud deyil, yəni konkret coğrafiyalara deyil, bütövlükdə qlobal vəziyyətə təsir edir. Bu baxımdan, Azərbaycan iqlim dəyişmələrinə qarşı mübarizədə mənfi təsirlərin azaldılması istiqamətində təşəbbüslər irəli sürüb. "Yaşıl enerji" sahəsinin ölkəmizdə inkişaf etdirilməsi istiqamətində praktiki addımları ilə də sözügedən istiqamətə ciddi töhfə verir.

Elşad Mirbəşiroğlu qeyd edib ki, COP29-un ölkəmizdə keçirilməsi hər şeydən əvvəl Cənubi Qafqazda iqlim dəyişmələrinin mənfi təsirlərinin azaldılması məsələsinə daha ciddi maliyyənin ayrılması, diqqətin yetirilməsi baxımından da əhəmiyyətli olacaq.

Bir sözlə, beynəlxalq konfrans həm siyasi, həm iqtisadi, həm də qlobal təhlükəsizlik üçün çox ciddi təhdidlər sırasında dayanan ekoloji böhranların, iqlim dəyişmələrinin təsirlərinin azaldılması baxımından təsirli və mühüm rol olacaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 6 iyun, № 118.- S.6.